# İNKLÜZİV MÜƏLLİMLƏRİN PROFİLİ

"İnklüziv Müəllimlərin Profli" adlı sənəd müəllimlər üçün inklüziv təhsildə işləməyə imkan verən əsas dəyər və səriştələri özündə ehtiva edir. "İnklüziv Müəllimlərin Profili" sənədi Xüsusi və İnklüziv Təhsil üzrə Avropa Agentliyinin həyata keçirdiyi "İnklüziya üzrə müəllim hazırlığı" layihəsi çərçivəsində hazırlanmışdır. Bu 3 illik layihə çərçivəsində 25 Avropa ölkəsindən 55 ekspert iştirak etmidir.

Bu sənəddə inklüziv təhsil üçün müəllimlərin malik olmalı olduğu dəyər və səriştələr öz əksini tapmşdır. Sənəddə qeyd olunur ki, təlim və tədrislə bağlı dörd əsas dəyər bütün müəllimlərin inklüziv təhsil sahəsində fəaliyyətinin əsasını təşkil edir. Bu dörd əsas dəyər aşağıdakılardan ibarətdir:

- Birinci dəyər: Təhsilalanların müxtəlifliyinin dəyərləndirilməsi. Yəni təhsilalanların fərqliliyi təhsildə resurs və dəyər kimi qiymətləndirilir;
- İkinci dəyər: Bütün təhsilalanların dəstəklənməsi. Yəni müəllimlər bütün şagirdlərin uğur qazanması ilə bağlı yüksək gözləntilərə malikdirlər;
- Üçüncü dəyər: Başqaları ilə birgə iş. Yəni əməkdaşlıq və komanda işi bütün müəllimlər üçün vacib yanaşmalardır;
- Və nəhayət dördüncü dəyər: Fərdi peşəkar inkişafın davam etdirilməsi. Yəni tədris bir öyrənmə fəaliyyətidir və müəllimlər ömürboyu öyrənmək üçün məsuliyyət daşıyırlar.

Səriştə sahələri isə üç elementdən ibarətdir: münasibətlər, biliklər və bacarıqlar. Müəyyən bir münasibət və ya inanc bu məlumatları praktikada həyata keçirmək üçün müəyyən bilik və ya anlayış səviyyəsini, daha sonra bacarıqları tələb edir. Müəyyənedilmiş hər bir bacarıq sahəsi üçün əsas münasibətlər, eləcə də onları şərtləndirən bilik və bacarıqlar təqdim olunur. Bir-biri ilə sıx əlaqəli olan bu bacarıq sahələri "İnklüziya üzrə müəllim hazırlığı" layihəsi çərçivəsində müəyyənləşdirilmişdir. Bu bacarıqlar müxtəlif ölkələrdə müəllimlər üçün zəruri olan fundamental bacarıqlar hesab edilir və müllimlərin peşəkar inkişafında bu bacarıqlar əsas baza kimi götürülür. İndi isə bu dəyər və bacarıqlala tanış olaq.

**Birinci dəyər - şagird müxtəlifliyinə dəyər verimәsi**

Şagird müxtəlifliyi təhsildə dəyər hesab edilir. Bu əsas dəyər daxilində bacarıq sahələri aşağıdakılarla bağlıdır:

- İnklüziv təhsil konsepsiyaları
- Şagirdlərin fərqliliyi ilə bağlı müəllimin baxışı

İnklüziv təhsil konsepsiyaları çərçivəsində müəllimlərin bacarıq sahəsinin əsasını təşkil edən yanaşma və inanclar aşağıdakılardır:

- təhsil bütün şagirdlər üçün bərabərlik, insan hüquqları və demokratiyaya inanca əsaslanır;

- inklüziv təhsil birmənalı olaraq ictimai islahatların təməlini təşkil edir;
- inklüziv təhsil və təhsildə keyfiyyət bir-birindən ayrı məsələlər kimi qəbul edilə bilməz;
- təhsilə çıxış əldə etmək kifayət deyil, təhsildə iştirak o deməkdir ki, bütün şagirdlər onlar üçün əhəmiyyət kəsb edən öyrənmə fəaliyyətləri ilə məşğul olurlar.

Bu səriştə sahəsinin təməlini təşkil edən əsas bilik və anlayışlar isə aşağıdakı kimidir:

- inklüziv təhsil qlobal və yerli kontekstlərdə təhsilin əsasını təşkil edən nəzəri və praktik konsepsiya və prinsiplərdən ibarətdir;
- təhsil müəssisələri inklüziv təhsilə bütün səviyyələrdə təsir edən daha geniş mədəniyyət və siyasət sisteminə malik olmalıdır.
- təhsil sisteminin güclü və zəif cəhətləri müəllimlər tərəfindən qəbul edilməlidir;
- inklüziv təhsil yalnız bütün ehtiyac sahibləri və təhsil imkanlarından məhrum olmanlar üçün deyil, bütün öyrənənlər üçün bir yanaşma kimi qəbul edilməlidir;
- inklüzivliyi və müxtəlifliyi, eləcə də təhsilalanları təsvir və təsnif etmək üçün müxtəlif uyğun terminlərdən istifadə edilməlidir;
- inkluziv təhsil bütün təhsilalanların təlimdə iştirakı və nailiyyət əldə etməsi üçün imkanlar toplusu hesab edilməlidir.

Bu səriştə sahələri üzrə inkişaf etdirilməli olan əsas bacarıq və qabiliyyətlərə aşağıdakılar daxildir:

- öz inanc və davranışlarının və onların hərəkətlərə təsirlərinin araşdırılması;
- etik davranış və məxfiliyə hörmətlə yanaşmaq;
- mövcud vəziyyəti və konteksti anlamaq üçün təhsil tarixini araşdırmaq;
- müəllimlərin qeyri-inklüziv münasibətinə qarşı mübarizə aparmaq istiqamətində hazırlanmasına dair strategiyaları idarə etmək;
- təhsilalanların müxtəlif ehtiyaclarına qayğı ilə yanaşmaq;
- sosial münasibətlərdə hörmətə əsaslanan davranışın modelləri və təhsilin bütün iştirakçıları və maraqlı tərəfləri ilə münasibətlərdə müvafiq dildən istifadə etmək.

Yuxarıda qeyd etditimiz kimi müəllimlərin inklüziv təhsil sahəsində fəaliyyətinin əsasını təşkil edə bigər bir dəyər "təhsilalanların fərqliliyi ilə bağlı müəllimin baxışları"dır. Müəllimlərdə bu dəyərin formalaşması üçün bacarıqların əsasını təşkil edən yanaşma və inancları aşağıdakı kimi sıralamq olaq:

- fərqli olmaq tamamilə normaldır;
- şagird müxtəlifliyi öyrənmə imkanlarını genişləndirən, o cümlədən inklüziv təhsil məktəblərə, cəmiyyətə dəyər gətirən resurs kimi başa düşülməli;

- bütün təhsilalanların səsi eşidilməli və qiymətləndirilməlidir;
- müəllim təhsilalanların özünəinamının artmasında və nəticə etibarilə, onların öyrmənmə potensialının artmasında əsas təsiredici rola malikdir;
- təhsilalanların qruplaşdırılması və onların damğalanması öyrənmə imkanlarına mənfi təsir göstərə bilər.

Bu sadaladığımız bacarıq sahəsinin əsasını təşkil edən əsas bilik və bacarıqlara isə aşağıdakılar daxildir:

- təhsilalanların müxtəlifliyi, yəni onların ehtiyacları, dili, sosial vəziyyəti və s. haqqında əsas məlumatlar;
- təhsilalanlar özləri müxtəlifliyə hörmətin aşılanması üçün resurs kimi istifadə oluna bilər;
- təhsilalanlar müxtəlif yollarla bilik əldə edir, bunu təlim prosesinin zəmnginlşdirilməsi üçün bir fürsət kimi istifadə etmək olar;
- məktəb təhsilalanların özünəinam və öyrənmə potensialına təsir edən bir sosial mühit kimi çıxış edir;
- məktəb və siniflərdə təhsilalanların sayı, onların ehtiyacı daim dəyişir; bu dəyişiklik sadəcə statik bir anlayış kimi qəbul edilməməli, yeni yaranan zərurət kimi qiymətləndirimməlidir.

Bu səriştə sahələri çərçivəsində inkişaf etdirilməli vacib bacarıq və qabiliyyətlərə aşağıdakılar daxildir:

- fərqliliklərdən necə öyrənməyi öyrənmək;
- bütün hallarda müxtəlifliyə cavab vermək üçün ən uyğun yolları müəyyənləşdirmək;
- tədris proqramının həyata keçirilməsində müxtəliflik amilini nəzərə almaq;
- tədris üçün bir qayda olaraq yanaşma və metodların öyrənilməsində müxtəliflikdən istifadə etmək;
- məktəbi bütün təhsilalanların nailiyyətlərinə hörmət edən və onların nailiyyətlərini təşviq edən mərkəzə çevirmək.

**İkinci dəyər - Bütün təhsilalanların dəstəklənməsi**

Müəllimlərin malik olmalı olduğu digər bir fundamental dəyər bütün təhsilalanların dəstəklənməsidir. Başqa sözlə, müəllimlərin bütün təhsilalanların uğur qazanması ilə bağlı yüksək gözləntilərə malik olmasıdır. Bununla əlaqədar olaraq müəllimlər təhsilalanların akademik, sosial və emosional inkişafını təmin etməli, heterogen siniflərdə, yəni fərqli ehtiyacları olan şagirdlərdən ibarət siniflərdə effektiv tədris yanaşmaları tətbiq etməlidirlər.

İndi isə bu bacarıqların mahiyyətinə daha yaxından baxaq. Qeyd olunduğu kimi ilk bacarıq "bütün təhsilalanlar üçün akademik, sosial və emosional təlimin təşviq edilməsi"dir. Bu bacarığın əsasını təşkil edən yanaşma və inanclara aşağıdakılar daxildir:

- təlim əsasən sosial fəaliyyətdir;
- akademik, praktiki, sosial və emosional təhsil bütün təhsilalanlar üçün eyni dərəcədə vacibdir;
- müəllimlərin gözləntiləri şagird müvəffəqiyyətinin əsas təminatçısıdır və buna görə bütün təhsilalanlar üçün yüksək gözləntilər vacibdir;
- bütün təhsilalanlar özlərinin təlim prosesində və iştirak etdikləri qiymətləndirmə proseslərində aktiv qərarverici olmalıdırlar;
- valideynlər və ailələr təhsilalanların təlimləndirilməsi üçün əsas resurslardır;
- bütün təhsilalanlarda müstəqillik və öz müqəddəratını sərbəst təyin etmə bacarığının inkişaf etdirilməsi vacibdir;
- hər bir təhsilalanın öyrənmə potensialı və bacarığı aşkar edilməli və stimullaşdırılmalıdır.

Bu səriştə sahənin əsasını təşkil edən əsas biliklərə isə aşağıdakılar daxildir:

- valideynlər və ailələrlə əməkdaşlığın əhəmiyyətini anlamaq;
- xüsusilə sosial və ünsiyyət bacarıqlarının inkişafı ilə əlaqədar olaraq tipik və atipik inkişaf etmiş uşaq nümunələri və onlarla işləmək metodları;
- təhsilalanların öyrənməyə üsullarının fərqli olması.

Bu səriştə sahəsi çərçivəsində inkişaf etdirilməsi vacib olan bacarıqlar aşağıdakılardır:

- təhsilalanların, valideynlərin və digər peşəkarların müxtəlif ünsiyyət ehtiyaclarına cavab verə bilən effektiv verbal və qeyri-verbal natiqlik bacarıqlarının olması;
- təhsilalanların ünsiyyət bacarıqlarının və imkanlarının inkişafının dəstəklənməsi;
- təhsilalanlarda öyrənmə bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi;
- təhsilalanların sərbəst inkişaf etdirilməsi;
- interaktiv təlim yanaşmalarının asanlaşdırılması;
- təhsilalanların sosial inkişaf və qarşılıqlı əlaqələrinə dəstək verən idarəçilik yanaşmalarının tətbiqi;
- təhsilalanların risk götürdükləri və hətta təhlükəsiz mühitdə uğursuzluğa uğradıqları vəziyyətlərin öyrənilməsinin və onların aradan qaldırılması;
- sosial və emosional, eləcə də akademik təlimi nəzərə alan təlim yanaşmalarının qiymətləndirməsindən istifadə edilməsi.

“Bütün təhsilalanların dəstəklənməsi” dəyərinin əsasında duran digər bacarıq heterogen siniflərdə effektiv tədris yanaşmalarının tətbiqidir. Bu bacarığın əsasını təşkil edən yanaşma və inanclara aşağıdakılar daxildir:

- səriştəli və effektiv çalışa bilən müəllimlər bütün təhsilalanların müəllimləri hesab edilir;
- müəllimlər siniflərdə bütün təhsilalanların təlimdə iştirakına görə məsuliyyət daşıyır;
- təhsilalanların bacarıqları sabit deyil, yəni bütün təhsilalanların öyrənmə və inkişaf tempi fərlənir;
- öyrənmə bir prosesdir və bütün təhsilalanlar üçün məqsəd yalnız biliklərin inkişafı deyil, həm də öyrənmə bacarıqlarının inkişafıdır;
- öyrənmə prosesi bütün təhsilalanlar üçün əsasən eynidir - çox az sayda 'xüsusi metodlar” vardır;
- bəzi hallarda xüsusi təlimdə yaranan çətinliklər tədris planı və təlim yanaşmalarında adaptasiya işlərinin aparılmasını tələb edir.

Yuxarıda sadaladığımız səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlara aşağıdakılar daxildir:

- təhsilalanların öyrənmə üsuli ilə nəzəri bilikləri və öyrənmə prosesini dəstəkləyən tədris modelləri;
- müsbət davranış və sinif rəhbərliyi yanaşmaları;
- təhsilin dəstəklənməsi üçün sinfin fiziki və sosial mühitinin idarə edilməsi;
- təlimə maneə yaradan amillərin müəyyənləşdirilməsi və onların aradan qaldırılması;
- tədris və qiymətləndirmə ilə bağlı əsas bacarıqların inkişafı etdirilməsi:
- təhsilalanın güclü tərəflərinin müəyyənləşdirilməsinə yönəlmiş təlim metodlarının qiymətləndirilməsi;
- təhsilalanların təlimə fəal cəlb olunması və müxtəlif ehtiyacların qarşılanması məqsədilə tədris proqramının məzmununun, öyrənmə prosesinin və öyrənmə materiallarının diferensiallaşdırılması;
- təhsilalanların öyrənmə prosesində sərbəstliyinin artmasını təmin edən və bütün təhsilanları əhatə edən fərdi öyrənmə yanaşmaları;
- fərdi təhsil planlarının, yaxud, uyğun olduqda digər bənzər fərdi öyrənmə proqramlarının hazırlanması, tətbiqi və effektiv nəzərdən keçirilməsi.

Bu səriştə sahəsi çərçivəsində inkişaf etdirilməsi vacib olan əsas bacarıq və qabiliyyətlərə aşağıdakılar daxildir:

- sinfin effektiv idarə olunması ilə bağlı sistematik yanaşmanı özündə əks etdirən sinif rəhbərliyi bacarıqlarından istifadə etmək;
- təhsilalanlarla fərdi şəkildə, eləcə də heterogen qruplarla iş;

- kurikulumdan inklüziv təhsilə əlçatanlığı dəstəkləyən bir vasitə kimi istifadə etmək;
- kurikulum hazırlanması proseslərində müxtəliflik məsələsinin nəzərə alınması;
- öyrənmə metodlarının, təlim məzmununun və nəticələrinin diferensiallaşdırılması;
- təlimin fərdiləşdirilməsi üçün təhsilalanlar və onların ailələri ilə birgə iş;
- çevik qruplar çərçivəsində təhsilalanların bir-birlərinə müxtəlif yollarla kömək etdiyi interaktiv təlim mühitinin yaradılması;
- bir sıra təlim metodları və yanaşmalarının sistematik şəkildə istifadə edilməsi;
- təhsilə çevik yanaşmaların dəstəklənməsi üçün İKT və adaptiv texnologiyadan istifadə etmək;
- təlim məqsədlərinə nail olmaq, öyrənmək üçün alternativ yollardan istifadə etmək, çevik təlimatlandırma aparmaq və təhsilalanların suallarına aydın cavablar vermək üçün sübutlara əsaslanan tədris yanaşmasından istifadə etmək;
- təhsilalanları dəstəkləyən və onlara mənfi təsir göstərməyən və ya damğalamayan formativ və summativ qiymətləndirmədən istifadə etmək;
- təhsilalanlara münasibtədə problemlərin birgə həlli yanaşmasından istifadə etmək;
- təhsil almanı asanlaşdırmaq üçün bir sıra verbal və qeyri-verbal ünsiyyət bacarıqlarına diqqət vermək.

**Üçüncü dəyər - əməkdaşlıq**

Təlim və tədrislə bağlı üçüncü fundamental dəyər əməkdaşlıq və komanda işidir. Bu dəyərin mahiyyətini təşkil edən bacarıqlar aşağıdakılardır:

- Valideyn və ailələr ilə birgə işləmək;
- Digər təhsil mütəxəssisləri ilə birgə işləmək.

Valideyn və ailələr ilə birgə işləmək bacarığının əsasını təşkil edən yanaşma və inanclara aşağıdakılar daxildir:

- valideynlər və ailələrlə birgə işləməyin əhəmiyyəti haqqında məlumatlılığın artırılması;
- valideynlərin və ailələrin mədəni və sosial vəziyyətinə hörmət;
- valideynlər və ailələrlə səmərəli ünsiyyət və əməkdaşlığa müəllimlərin məsuliyyəti kimi baxılması.

Bu bacıarıqların əsasını təşkil edən əsas bilik və anlayışlara aşağıdakılar daxildir:

- əməkdaşlığa əsaslanan inklüziv təhsil;
- müsbət qarşılıqlı ünsiyyət bacarıqlarının əhəmiyyəti;

- qarşılıqlı münasibətlərin təlim nəticələrinə təsiri.

Bu səriştə sahələri çərçivəsində inkişaf etdirilməli əsas bacarıqlar aşağıdakılardır:

- uşaqların təlimləndirilməsinə dəstək məsələsində ailə və valideyinlərlə effektiv işin qurulması;
- müxtəlif mədəni, etnik, və sosial statusa malik ailə üzvləri və valideynlərlə effektiv ünsiyyətin qurulması.

Digər təhsil mütəxəssisləri ilə birgə işləmək bacarığının əsasını təşkil edən yanaşma və inanclara aşağıdakılar daxildir:

- inklüziv təhsil bütün müəllimlərin komanda halında işləməsini tələb edir;
- əməkdaşlıq, tərəfdaşlıq və komanda işi bütün müəllimlər üçün əsas yanaşmalardır və bu, müsbət qarşılanmalıdır;
- əməkdaşlığa əsaslanan komanda işi digər mütəxəssislərdən öyrənməyə imkan yaradır.

Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və bacarıqlara aşağıdakılar daxildir:

- digər müəllim və təhsil işçiləri ilə birgə işin dəyərini anlamaq;
- əlavə yardım, töhfə və məsləhət üçün mümkün dəstək sistemlərinin qurulması;
- inklüziv sinifdə müəllimlərin müxtəlif ixtisaslar üzrə mütəxəssislər və işçilərlə əməkdaşlıq etdiyi çoxfunksiyalı iş modelləri;
- müəllimlərin təhsilalanlar və onların valideynləri, həmyaşıdları, digər məktəb müəllimləri və yardımçı işçilər, eləcə də müvafiq olarsa, multidisiplinar qrup üzvləri ilə komanda şəklində işlədiyi birgə tədris yanaşmaları;
- təhsilə cəlb olunmuş digər mütəxəssislərin istifadə etdiyi terminologiya və əsas iş qaydası ilə tanışlıq;
- müxtəlif maraqlı tərəflər arasında effektiv münasibətlər.

Bu səriştə sahəsi çərçivəsində inkişaf etdirilməsi vacib olan bacarıq və qabiliyyətlər belədir:

- müxtəlif mütəxəssislərin iştirak etdiyi səmərəli işin qurulmasını təmin edən sinif rəhbərliyi və idarəçilik bacarıqlarının tətbiqi;
- tədris qruplarında birgə tədris;
- məktəb kollektivinin bir hissəsi kimi işləmək və məktəbin daxili və xarici resurslarından istifadə;
- geniş məktəb kollektivinin bir hissəsi olan sinif kollektivinin qurulması;

- məktəbdaxili qiymətləndirilmənin keçirilməsi, qiymətləndirmə nəticələrinin nəzərdən keçirilməsi və nəticə etibarilə təlimin təkmilləşməsi proseslərinə töhfə vermək;
- digər mütəxəssislər ilə birlikdə problemlərin həlli;
- digər məktəblər, icma və təhsil təşkilatları ilə daha geniş tərəfdaşlığın qurulması;
- digər peşəkarlar ilə əməkdaşlıq şəraitində işin təmin edilməsi üçün bir sıra verbal və qeyri-verbal kommunikasiyadan istifadə.

**Dördüncü dəyər - fərdi peşəkar inkişaf**

Təlim və tədrislə bağlı dörd əsas dəyərdən sonuncusu fərdi peşəkar inkişafdır. Bu dəyərin əsasını təşkil edən şəristələr isə bunlardır:

- Müəllimlər refleksiv mütəxəssislər kimi
- İlkin pedaqoji təhsil fasiləsiz pedaqoji təhsil və inkişafın təməli kimi

Müəllimlərin refleksiv mütəxəssislər kimi formalaşmasının əsasını təşkil edən yanaşma və inanclara aşağıdakılar daxildir:

- müəllimlik problemlərin həllinə istiqamətlənmiş fəaliyyətdir və davamlı, sistematik planlaşdırma, qiymətləndirmə, refleksiya və daha sonra modifikasiya tədbirləri tələb edir;
- refleksiya etmək valideyinlərlə, eləcə də komanda şəklində digər müəllimlər və peşəkarlar ilə işləməkdə müəllimlərə kömək edir;
- müəllimin işinə rəhbərlik etmək üçün sübuta əsaslanan praktika əhəmiyyət kəsb edir;
- müəllimin işinə rəhbərlik etmək üçün fərdi pedaqoji inkişafın qiymətləndirilməsi əhəmiyyət kəsb edir.

Bu səriştənin təməlini təşkil edən əsas bilik və anlayışlar isə aşağıdakı kimidir:

- şəxsi meta-koqnitiv bacarıqların öyrənilməsi üzrə təlimlənmək;
- refleksiv müəllimlik anlayışının dərk edilməsi və fərdi refleksiyanın inkişaf etdirilməsi yolları;
- öz işini və fəaliyyətini qiymətləndirmək üçün üsullar və strategiyalar;
- fəaliyyətin tədqiqi üsulları və müəllimlərin işi ilə əlaqələndirmək;
- problemlərin həlli üçün fərdi strategiyaların inkişafı.

Bu səriştə sahəsinin inkişaf etdirilməsi üçün vacib olan bacarıq və qabiliyyətlər isə belədir:

- sistematik olaraq öz fəaliyyətini qiymətləndirmək;
- digərlərinin refleksiya prosesinə cəlb olunmaq;
- təhsil müəssisəsinin inkişafına töhfə vermək.

Qeyd olunduğu kimi fərdi peşəkar inkişaf dəyərinin əsasını təşkil edən ikinci səriştə belə adlanır "ilkin pedaqoji təhsil fasiləsiz pedaqoji təhsil və inkişafın təməli kimi". Bu səriştə sahəsinin əsasını təşkil edən münasibətlər və inanclar aşağıdakılardır:

– müəllimlər öz davamlı peşəkar inkişafı üçün məsuliyyət daşıyırlar;
– ilkin pedaqoji təhsil müəllimlərin ömürboyu öyrənmələri üçün ilk addımdır;
– tədris bir öyrənmə fəaliyyətidir, yeni bacarıqları öyrənməyə açıq olmaq və fəal məlumat və məsləhət üçün müraciət etmək yaxşı bir haldır, zəiflik deyil;
– müəllim inklüziv təhsillə bağlı bütün məsələlərdə ekspert ola bilməz. İnklüziv təhsilə başlayanlar üçün ilk vacib olan ümumi biliklərdir, daha sonra isə davamlı öyrənmək lazımdır;
– dəyişiklik və inkişaf inklüziv təhsildə sabitdir və müəllimlər öz karyeralarında dəyişən ehtiyac və tələblərə cavab vermək bacarıqlarına ehtiyac duyurlar.

Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlar isə belə təsbit olunub:

– təhsil qanunvericiliyi və bu qanunvericilik çərçivəsində müəllimlərin təhsilalanlar və həmkarları qarşısında hüquq və vəzifələri.

Bu səriştə sahəsi üzrə inkişaf etdirilməsi vacib olan bacarıq və qabiliyyətlər belədir:

– yenilik və fərdi öyrənməni təşviq edən tədris strategiyalarında çeviklik;
– peşəkar inkişaf imkanlarını təmin etmək üçün vaxtın idarə olunması strategiyaları;
– öz həmkarlarından öyrənməyə və öyrətməyə həvəs göstərmək:
– bütün məktəb kollektivinin öyrənmə və inkişaf proseslərinə kömək etmək.

Qeyd olunduğu kimi bu dəyərlər və bacarıqlar inknlüziv təhsildə uğurlu və səmərəli fəaliyyət göstərmək istəyən bütün müəllimlərin malik olmalı olduğu fundamental dəyər və bacarıqlardır və bunlara sahib olmaq müəllimin effektiv fəaliyyətinə və şagirdlərin daha yaxşı öyrənməsinə töhvə verir.